# VIII Qəbələ Beynəlxalq Musiqi Festivalı tamaşaçılara və dinləyicilərə unudulmaz anlar yaşadıb

Heydər Əliyev Fondunun təşkilatçılığı ilə iyulun 30-dan avqustun 5-dək açıq havada davam edən VIII Qəbələ Beynəlxalq Musiqi Festivalı dünya ictimaiyyətinin, xüsusilə mədəniyyət və incəsənət adamlarının böyük marağına səbəb olmuşdur. Telekanallar vasitəsi ilə dünyanın bir çox ölkələrində seyr edilən bu ənənəvi sənət bayramında Azərbaycan, Avstriya, Bolqarıstan, Ukrayna, ABŞ, İspaniya, İsrail, Litva və Kubadan, bir sözlə, 12 ölkədən musiqiçilər, bədii kollektivlər, solistlər, dirijorlar iştirak edirdilər.



Yeddi il bundan əvvəl (2009-cu il) Qəbələdə musiqi festivalının keçirilməsi ilə milli musiqi mədəniyyəti tarixində yeni ənənənin təməli qoyulmuşdur. O gündən hər il keçirilən bu festival Azərbaycanın və bütün Cənubi Qafqazın mədəni həyatında, beynəlxalq mədəni əlaqələrin genişləndirilməsində, zəngin musiqi mədəniyyətimizin dünya ictimaiyyətinə çatdırılmasında, xalqlar arasında qarşılıqlı anlaşma və dostluğun möhkəmləndirilməsində gözəl bir ənənəyə çevrilərək öz beynəlxalq nüfuzunu ildən-ilə artırmışdır. Qəbələ artıq dünyanın tanınmış musiqiçilərinin, sənətsevərlərinin, incəsənət xadimlərinin və onlara böyük rəğbət bəsləyən tamaşaçıların sevimli görüş yeri olmuşdur.

Qəbələ şəhərindəki Heydər Əliyev Konqres Mərkəzinin qarşısında açıq havada quraşdırılan möhtəşəm səhnədə keçirilən mərasimin açılışında Azərbaycanda musiqi mədəniyyətinin inkişafı və təbliğində müstəsna rol oynayan Heydər Əliyev Fondunun prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın festival iştirakçılarına təbrik məktubu oxunub.

Təbrik məktubundan sonra xalq artisti Rauf Abdullayevin dirijorluğu ilə Azərbaycan Dövlət Simfonik Orkestrinin konserti olmuşdur. Mindən çox tamaşaçının dinlədiyi konsertdə Üzeyir Hacıbəylinin, Niyazinin, Qara Qarayevin, Fikrət Əmirovun, Cakomo Puççininin, Cüzeppe Verdinin və Coakino Rossininin əsərləri səsləndirilib. İfaçılar - Dövlət Akademik Opera və Balet Teatrının solisti, xalq artisti Samir Cəfərovun, Azərbaycan Televiziya və Radiosunun solisti Aytac Şıxəlizadənin çıxışları alqışlarla qarşılanmışdır.

Hər dəfə dünyanın bir çox ölkəsindən çoxsaylı musiqiçilərin qatıldığı bu dostluq və musiqi bayramı mədəni irsimizin zəngin ənənələrinin qorunub saxlanılması ilə yanaşı, müxtəlif ölkələri təmsil edən musiqiçilərə ünsiyyət və əməkdaşlıq üçün əlverişli şərait yaradır, mədəniyyətlərarası dialoqun möhkəmləndirilməsinə öz töhfəsini verir. Ötən 7 ildə əldə olunan uğurlar deməyə əsas verir ki, festivalın böyük potensialı var. Gözəl təbiət qoynunda ənənəvi olaraq keçirilən bu festivalı daha parlaq gələcək gözləyir. Qəbələ festivalı artıq dünyada tanınır və qəbul olunur. Xalq artisti, əməkdar incəsənət xadimi Polad Bülbüloğlunun təbirincə desək, bu festivalda iştirak etmək bir çox musiqiçilərin arzusuna çevrilib və onlar hər zaman dəvət gözləyirlər.

Dünyanın tanınmış musiqiçiləri, solistləri avqustun ilk yeddi günü Qəbələdə böyük təntənə ilə konsert verdilər. Burada hər gün iki və ya üç konsert keçirilib, fərqli musiqi əsərləri səsləndirilib. Konsertlərə tamaşa etmək üçün paytaxt Bakıdan və bölgələrdən yüzlərlə insan gedib. Qəbələdə dincələn xarici turistlərin axşamlar klassik musiqi dinləmək üçün necə həvəslə festivala gəldiklərini hamı heyranlıqla müşahidə edib. Təbii ki, əcnəbi musiqiçilər və turistlər öz ölkələrinə qayıdanda Azərbaycan barədə, Qəbələ haqqında, bu böyük musiqi bayramı barədə ailələrinə, dostlarına öz təəssüratlarını danışacaqlar. Bu da Azərbaycanın dünyada daha da tanınmasına kömək edəcək. Festival iştirakçılarının özlərinin də etiraf etdikləri kimi hazırda dünyanın bir çox ölkələrində bu cür tədbirlər keçirmək istəyirlər. Lakin bunun təşkili üçün maliyyə məsələləri ilə bağlı müəyyən çətinliklər olur. Festivalda iştirak edən xalq artistləri Fidan və Xuraman Qasımova bacıları müxbirimizlə söhbətdə Qəbələ festivalının builki proqramının çox zəngin olduğunu vurğulayaraq bildiriblər ki, hər gün kamera musiqisi zalında və açıq səma altında təşkil olunan konsertlərdə tamaşaçı izdihamı yaşanırdı. Bu il festivalın iştirakçıları və qonaqları arasında daha məşhur kollektivlərlə, müasir ifaçılıq sənətinin zirvəsində duran dünya şöhrətli ustad sənətkarlarla bir arada olmaq hamıda xoş əhvali-ruhiyyə yaradırdı.

Festival çərçivəsində keçirilən Gənc Pianoçuların IV Beynəlxalq Müsabiqəsində birinci yeri azərbaycanlı pianoçu Vurğun Vəkilov və rusiyalı Anna Kavalerova tutmuşlar. İkinci yerə isə azərbaycanlı və rusiyalı pianoçular - Tofiq Şıxıyev ilə Yevgeniya Antonova çıxmışlar. Üçüncü yeri tutan olmayıb. Rəşid Behbudov və Atabala Manafzadə müsabiqədə digərlərindən fərqli ifalarına görə diplomla təltif olunmuşlar. Qaliblərə və fərqlənənlərə pul mükafatları verilmişdir.

Rəngarəngliyi ilə zəngin olan festivalda musiqi ovqatlı günlərlə yanaşı, əyləncəli proqramlar, tarixi yerlərə gəzintilər, maraqlı görüşlər də olub. Bu festivalın dünyada nadir hallarda keçirilən musiqi tədbirlərindən əsas fərqi ondadır ki, tamaşaçılar burada konsertləri bilet almadan pulsuz izləyə biliblər. Yəni klassik musiqinin təbliği və maarifçilik məqsədilə keçirilən bu tədbir kommersiya xarakteri daşımayıb. Festivala yerli tamaşaçılarla yanaşı, xarici turistlər də böyük maraq göstəriblər. Onlar Qəbələnin müasir hotellərində və kirayə verilən yüksək şəraitə malik kənd evlərində həm dincəlmiş, həm də gündə iki dəfə dünyanın tanınmış musiqiçilərinin iştirakı ilə keçirilən konsertləri izləyərək böyük zövq almışlar. Bir həftə davam edən bu musiqi bayramında 10 mindən çox tamaşaçı iştirak etmişdir ki, onların da əksəriyyəti xarici turistlər olmuşdur. Onu da qeyd edək ki, hər il Qəbələ Beynəlxalq Musiqi Festivalının əcnəbi tamaşaçıları arasında Rusiya və Avropa ölkələrinin vətəndaşları üstünlük təşkil edirdisə, bu il Qəbələyə müsəlman ölkələrindən gələnlərin sayı daha çox olmuşdur. Onlar klassik musiqi əsərlərini korifey sənətkarların ifasında canlı dinləməklə daha Avropa ölkələrinə və Rusiyaya getməyə ehtiyac olmadığını bildirirlər.

Yerli və xarici turistlər festival günlərində rəngarəng konsert proqramlarına tamaşa etməklə yanaşı, Qəbələdəki "Tufandağ" Qış-Yay Turizm İstirahət Kompleksində, Stend və Ox Atıcılığı Kompleksində, Çuxur Qəbələ kəndində yerləşən və 900 il Qafqaz Albaniyasının paytaxtı olan qədim Qəbələ şəhərinin ərazisində, Nic qəsəbəsindəki qədim "Cotari" alban kilsəsində, Vəndam qəsəbəsindəki "Yeddi gözəl" şəlaləsində, Qəbələ şəhərindəki "Beltman" piano fabriki və Qəbələ Tarix-Diyarşünaslıq Muzeyində olublar. Bundan başqa, onlar İsmayıllı, Oğuz, Şəki və digər ətraf ərazilərə səfərlər ediblər, memarlıq abidələri və görməli-gəzməli yerlərlə tanış olublar. Avstriyanın "Vayner Akademiya" Kamera Orkestrinin dünya şöhrətli dirijoru Martin Heselbök müsahibəsində bildirib ki, VIII Qəbələ Beynəlxalq Musiqi Festivalı orkestrimizin üzvlərində xoş təəssüratlar yaratdı. Xüsusilə də tamaşaçıların konsertimizə marağı bizi çox ruhlandırdı.

Avstriyanın elm və incəsənətinə xidmətə görə Şöhrət Xaçı, Praqada V.A.Motsart, Macarıstanda F. List mükafatlarına layiq görülən Martin Heselbök azərbaycanlı musiqisevərlərə və Qəbələnin gözəl təbiətinə heyran qaldığını bildirib: "Ölkənizi çox sevirəm. Rəhbərlik etdiyim ansambl ötənilki Qəbələ festivalında da uğurla çıxış etmişdi. Qəbələ səhnəsindəki iki saatlıq konsertimizdən sonra tamaşaçıların ayaq üstə davamlı olaraq alqışlaması bizi yaxşı mənada təəccübləndirmişdi. O anları yenidən yaşadığımız üçün xoşbəxtik".

Festivalın təşkilinə görə Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya minnətdarlığını bildirən Martin Heselbök festival təşkilatçılarını belə bir uğurlu layihə münasibətilə təbrik edərək deyib ki, burada konsertlər çox möhtəşəm keçir. Belə musiqi festivalı ilə hər bir ölkə fəxr edə bilər. Bəzi Avropa ölkələrində bu cür, yeni açıq havada möhtəşəm festival hələ yoxdur...

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***